*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 249-256*

https://doi.org/10.62837/2025.1.249

**AYBƏNİZ ƏHMƏDOVA**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Əcnəbi dillər kafedrasənın baş müəllimi
**aybanizahmadova50@gmail.com**

# ÜNSIYYƏT PROSESINDƏ MÜƏLLIM ÜÇÜN ZƏRURI PEŞƏ KOMPETENSIYALARI (NECESSARRY PROFESSIONAL COMPETENCIES FOR A TEACHER IN THE COMMUNICATION PROCESS)

**Xülasə**

Bu məqalə müəllim və tələbə ünsiyyətinin düzgün təşkil olunması müəllimdə aşağıdakı kompetensiyaların olması haqqındadır.

1.İnsanlara və onlarla işləməyə maraq.
2.Emosional empatiya və insanları dər etmə.
3.Çeviklik.
4.Ünsiyyətdə əks-əlaqəni hiss etmə.
5.Özünü, öz psixi vəziyyətini idarəetmə.
6.Spontanlıq.
7.Mümkün pedoqoji situasiyalar.
8.Verbal.
9.Pedoqoji hisslərə malik olma.
10. Pedoqoji improvizasiya.

**Açar sözlər: ünsiyyət, pedoqoji hisslər, psixi vəziyyət, stiuasiya, emosional səviyyə, yeniyetmə, məqsəd.**

**Key words: communication, pedagogical feelings, mental state, situation, emotional level, teenager, purpose.**

**Ключевые слова:коммуникация, педагогические чувства,психическое состояние,ситуация**

Müvəffəqiyyətli müəllim tələbə ünsiyyətinin düzgün təşkil olunması müəllimdə aşağıdakı kompetensiyaların olmasını nəzərdə tutur:

1) insanlara və onlarla işləməyə maraq, ünsiyyətə tələbatın və ünsiyyətqurma bacarığının, kommunikativ keyfiyyətlərin olması;

2) emosional empatiya və insanları dərketmə;

3) çeviklik, ünsiyyətin tez-tez dəyişən vəziyyətində düzgün və çevik istiqamətlənmə, ünsiyyət situasiyasından və tələbə lərin fərdi xüsusiyyətlərindən asılı olaraq nitqin təsirinin dəyişməsini təmin edən operativ-yaradıcı təfəkkür;

4) ünsiyyətdə əks-əlaqəni hiss etmə və onu davamlı saxlama;

5) özünü, öz psixi vəziyyətini, bədənini, səsini, mimikasını, əhval-ruhiyyəsini, fikirlərini, düşüncəsini, hisslərini idarəetmə;

6) spontanlıq (gözlənilməyən, hazırlıqsız kommunikasiya);

7) mümkün pedaqoji situasiyaları, öz təsirinin nəticələrini proqnozlaşdırma;

8) verbal: mədəniyyətin, nitqin inkişafı, mühüm leksik ehtiyat dil vasitələrindən seçmə və istifadə;

9) pedaqoji hisslərə malik olma, bunlar müəllimin təbii, həyati hisslərinin toplusudur ki, onlar məktəbliyə tələb olunan istiqamətdə təsir etməni nəzərdə tutur;

10) pedaqoji improvizasiya, müxtəlif təsir vasitələrini tətbiq etmə (inam, təlqin, hazırlama, müxtəlif təsir priyomlarının tətbiqi və s.).

Təsirinə səmərəliliyini yüksəldən vasitələr:

Təsirin səmərəliliyini yüksəldən vasitələr: "uyğunlaşdırma" - bu, priyomlar (mimika, nitq, psixoloji) sistemidir. Burada qəbuletmə, məsləhət, narazılıq, xahiş, mühakimə, yumor, ironiya, əmr, inam, arzu və s. vardır (onların 160-dan artıq növü mövcuddur); əvvəlki cümlə ilə müqayisədə səs tonunun gücləndirilməsi; söz təsiri üsullarının dəyişilməsi, mürəkkəbdən sadəyə keçid; sadədən mürəkkəbə keçid; cümlələrin nəzərə çarpacaq şəkildə fərqləndirilməsi; ünsiyyət üsullarının tez-tez dəyişilməsi.

İmprovizasiya (gözlənilməz vəziyyətin yaranması) şəraitində müəllimlərdə aşağıdakı tip davranışlar mümkündür:

1.təbii tip: məhsuldar improvizasiya hərəkəti müəllimdə psixoloji və emosional çətinliklər yaratmır;

2. gərgin - yeniləşdirici tip: burada şəxsiyyətin bütün ehtiyat- larının səfərbərliyi gedir, ortaya çıxmış çətinliklər dəf edilir;

3.qeyri-müəyyən tip: müəllimin gözlənilməyən pedaqoji situasiyadan kənarlaşması (“görməmək, diqqət yetirməmək");

4. qeyri-iradi tormoz tipi: özünü itirmə, müəllimin fəaliy- yətinin tam tormozlanması;

Müəllimin Müəllimin tələbə şəxsiyyətini dərk etmə problemi son dərəcə mühüm problemdir. Hələ K.D.Uşinski qeyd edirdi ki, əgər müəllim insan tərbiyə etmək istəyirsə, o, hər şeydən öncə, onu hərtərəfli tanımalı, öyrənməlidir və təlim verdiyi şəxsiyyətin xüsusiyyətlərini yaxşı dərk etməlidir. Müəllimin tələbə şəxsiyyətini dərketmə səviyyəsi pedaqoji fəaliyyətin nəticələri ilə bağlıdır. Alimlərimizdən bəziləri göstərir ki, aşağı səviyyəli məhsuldarlığa malik pedaqoqlar üçün yalnız davranışın xarici əlamətlərinin qavranılması xarakterikdir. Onlar burada əsl məqsəd və motivlərə daxil ola bilmir. Lakin yüksək səviyyəli məhsuldarlığa malik müəllimlər şəxsiyyətin sabit inteqrativ xüsusiyyətlərini, tələbələrin davranışının aparıcı məqsəd və motivlərini, obyektiv dəyərləri düzgün müəyyənləşdirirlər.

Digər insanların dərk edilməsinin ən sadə üsulu özünü onun yerinə qoymadır. Buna identifikasiya deyilir. Əlbəttə, bu, heç də yeganə üsul deyil, lakin qarşılıqlı fəaliyyətdə, real situasiyalarda insanlar belə nümunələrdən istifadə edirlər və belə

hallarda tərəf müqabilin daxili vəziyyəti özünü onun yerinə qoyaraq müəyyən edilir ki, bu da öz növbəsində yaxşı nəticə və səmərə verir.

İdentifikasiya ilə ona məzmunca yaxın olan empatiya arasında sıx əlaqə mövcuddur. Empatiya da digər insanı qəbul etmənin xüsusi üsulu kimi müəyyənləşdirilir. Burada nəzərdə heç də digər insanın problemlərinin qeyri-rasional şəkildə dərk edilməsi deyildir. Bu, bir-birini qarşılıqlı dərkdə, digərinin problemlərinə cavab verməyə emosional can atmada özünü göstərir.

Empatiya - bu, digər insanı emosional şəkildə qəbul etmə baca- rığıdır, onun daxili aləminə daxil olma, onun bütün fikir və düşün- cələrini, hisslərini qəbul etmədir. Müxtəlif insanlarda emosionallığı əks etdirən cəhətlər müxtəlifdir.

İnkişafın üç səviyyəsi fərqləndirilir:

Birinci səviyyə bu, həmsöhbətlə ünsiyyətə girərkən, insan vəziyyətə, hisslərə, həmsöhbətinin düşüncəsinə, fikrinə özünəməxsus etinasızlıq göstərir - bu, aşağı səviyyədir; ikinci səviyyə - ünsiyyətin gedişində insanda digər insanın hissləri haqqında ara-sıra təsəvvürlər yaranır, üçüncü səviyyə – burada ünsiyyət zamanı insan nəinki ayrı-ayrı vəziyyətlərdə digər insanın vəziyyətinə həmin an daxil olur, həm də bütün bunu o, qarşılıqlı əlaqə prosesində edir. İnsanın özünün və digər insanların şəxsi xüsusiyyətlərinin dərk edilməsinin məntiqi forması - refleksiyadır. Refleksiya digər insanı, onun davranışının əlamətlərini araşdıraraq təhlil edib, məntiqi nəticələrə gəlmək deməkdir. Sonra isə bu ümumiləşdirmələrin vasitəsilə insan qarşılıqlı hərəkətlə bağlı öz konkret fərdi nəticələrini əldə edir, lakin bəzən daha tez-tez ümumiləşdirici və fərdi nəticələr ən kiçik əlamətlər üzərində qurulur və onlar heç də doğru olmur, daha doğrusu, bu, konkret situasiyanı nəzərə almamaqla korreksiya edilir. Bir-birini dərketmə prosesi refleksiya hadisəsi ilə mürəkkəbləşir. Refleksiya dedikdə biz fəaliyyətdə olan fərdin tərəf müqabili tərəfindən ünsiyyət zamanı necə qəbul edildiyini başa düşürük. Bu, nəinki digərini başa düşmədir, həm də digərini səni necə başa düşdüyünü bilməkdir. Daha doğrusu, bu güzgüdə bir-birini əks etdir- mənin iki dəfə artırılmış prosesidir ki, burada həm tərəf müqabilin daxili aləmini dərketmə, həm də onun daxili aləmində öz əksini tapma həyata keçir.

İnsanları düzgün qəbul etməyə və dəyərləndirməyə mane olan bir sıra amillər vardır. Onlardan ən başlıcası aşağıdakılardır:

1.Əvvəlcədən verilmiş ustanovkalarda inam dəyərlərinin olması, onlar müşahidəçidə qavrayış və digər insanın qiymətlən- dirilməsi prosesi başlamazdan əvvəl öz əksini tapır.

2. Formalaşmış stereotiplərin olması, həmin stereotiplərə əsa- sən müşahidə olunan insanlar əvvəlcədən müəyyən kateqoriyaya aid olurlar, onlar haqqında fikir formalaşır və həmin xüsusiyyət- lərin axtarılmasına diqqət yönəlir.

3.İnsan şəxsiyyətini qiymətləndirilməsində tələrm-tələsik nəti- cəyə gəlmə. Bu, o insan haqqında müvafiq və hərtərəfli informasiya olana qədər baş verir. Məsələn, bəziləri insan haqqında birinci dəfə onunla görüşdükdən sonra artıq hazır mühakimələrə malik olurlar.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 249-256*

4.İnsan şəxsiyyətinin mülahizə aparılmadan strukturlaşdırılması o zaman baş verir ki, onun haqqında formalaşan obraza mən tiqi cəhətdən yalnız müəyyən xüsusiyyətlər daxil olur, bu obraza uyğun olmayan anlayışlar isə kənara atılır.

5.Şəxsiyyətin hər hansı bir xüsusiyyətinə münasibət onun haqqında ümumi fikrin formalaşmasına təsir edir, onun ümumi obrazını formalaşdırır. Bundan sonra isə insan haqqında ümumi təsəvvür onun ayrı-ayrı keyfiyyətlərinin qiymətləndirilməsinə keçir. Əgər insan haqqında ümumi təsəvvür yaxşıdırsa, onda onun müsbət cəhətləri həddindən artıq yüksək qiymətləndirilir. Qüsurlu cəhətlər iya nəzərə alınmır, ya da ki, onlara haqq qazandırılır və əksinə, əgər insan haqqında ümumi təsəvvür pisdirsə, onda hətta onun müsbət davranışı da nəzərə alınmır, yaxud onun özünə uyğun şəkildə izah -edilmir. "Əks etdirmə" effekti başqa insanı özü kimi görür, şəxsi keyfiyyətlərinin və emosional halının onda olmasını zənn edir, insanları qəbul edən, qavrayan və qiymətləndirən zaman o, aşağıdakı kimi düşünür: "Bütün insanlar mənim kimidir, yaxud digərləri mənim əksimdir". Şübhəli və tərs adam bütün bu keyfiyyətləri öz tərəf müqabilində ünsiyyət zamanı, hətta onlar onda yoxdursa belə, görməyə daha çox meyllidir. Xeyirxah, həssas, təmiz insan isə, əksinə, pis insanı özü kimi qəbul edə, ona inana bilər. Odur ki, əgər hər hansı fərd şikayət etsə ki, onu əhatə edən insanların hamısı qəddar, simic və vicdansızdırlar, deməli, bu mühakimələr yalnız onun özünə görədir.

6."İlkin təsəvvür" effekti özünü orada büruzə verir ki, insanvə ya hadisə haqqında ilkin eşidilən və ya görülən informasiya son dərəcə mühümdür, o yaddan çıxmır və bu insanla bütün gələcək münasibətlərinin hamısına təsir etməyə qadirdir. Hətta sonra biz ilkin informasiyanı dağıdacaq digər informasiya alsaq belə, onsuz da həmin ilkin informasiyanı daha çox nəzərdə tutmağa can atacağıq. Digər insanın qavranılmasına insanın özünün əhval-ruhiyyəsi də təsir edir. Əgər insan qəmgindirsə, onun əhval-ruhiyyəsi o qədər də yaxşı deyilsə, insan haqqında ilkin təsəvvür neqativ hisslərdən ibarət olacaqdır. Tanış olmayan insan haqqında ilkin təsəvvürün tam və dəqiq olması üçün özünü ona qarşı müsbət "kökləmək" lazımdır.

7.Digər insanların fikirlərinə qulaq asma istəyinin və vərdişlərinin olmaması, insan haqqında yalnız öz xüsusi təsəvvürlərinə əsaslanma və daim onları müdafiə etmə;

8.Zaman keçdikcə insanları qəbul etmədə və dəyərləndirmədə dəyişikliklərin olmaması. Burada söhbət insan haqqında nə vaxtsa deyilmiş hər hansı fikir və mühakimənin dəyişilməməsindən gedir, baxmayaraq ki, onun haqqında yeni informasiya toplanır.

9."Sonuncu informasiyanın effekti" - bu, insan haqqında sonunucu neqativ informasiya alındıqda özünü biruzə verir və bu informasiya bu insan haqqında əvvəllər olan bütün fikirləri alt-üst edir.

Şəxsiyyətlərarası qavrayışın layihələşdirilməsinin mexanizmi insanın öz mövqeyindən kənarlaşma bacarığı, digər insanın nəzər- nöqtəsini qəbuletmə bacarığı, identifikasiya (düşünmədən özünü digərinin yerinə qoyma), empatiya (digər insanın

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 249-256*

vəziyyətinə, halına yanma, onun emosional səviyyəsinə çatma) kimi cəhətlərlə müəyyən olunur. Stereotipləşdirilmə şəxsiyyətlərarası düşüncənin, dərkin ən mühüm mexanizmlərindən biridir. Ətrafdakıların və onlarla qarşılıqlı əlaqənin təsiri nəticəsində hər bir insanda konkret fikirlər yaranır. Onlardan istifadə etməklə o digər insanlara qiymət verir. Hər şeydən öncə, sabit fikrin formalaşması insanın özü hiss etmədən gizli gedir. Ola bilər ki, kifəyət qədər dərk edilməmiş stereotiplər insan üzərində hakimlik etsin. 6 qrup sosial-qavrama stereotipləri fərqləndirilir: 1 - antropoloji, 2- etnomilli, 3 sosial-status,

4 sosial-rol, 5 ekspressiv-estetik, 6 - verbal-davranış. Bu stereotip fikirlər əksər hallarda insan haqqında informasiya çatışmazlığı şəraitində işə düşür ki, onun haqqında ilkin təsəvvürə görə müha- kimə yürütməyə məcbur olurlar.

Antropoloji stereotiplər insanın daxili psixoloji keyfiyyət- lərinin, onun şəxsiyyətinin qiymətləndirilməsinin fiziki simasının xüsusiyyətlərindən asılı olduğu zaman özünü büruzə verir. Etnomilli stereotiplər o zaman özünü büruzə verir ki, insanın psixoloji dəyəri onun bu və ya digər irqə, millətə, etnik qrupa məx- sus olması ilə müəyyənləşir. Sosial-status stereotipi insanın şəxsi keyfiyyətlərinin dəyərin- dən, onun sosial statusundan asılıdır (eksperimentlərdə müəyyən olunmuşdur ki, tanış olmayan insanın hətta boyu onun hansı statusda olmasına müvafiq qiymətləndirilir: sosial statusu yüksək olan insan ətrafdakılara uca boylu təəssüratı bağışlayır).

Sosial-rol stereotipi: insanın şəxsi keyfiyyətlərinin onun sosial rolundan, həmin rolun funksiyalarından asılı olaraq qiymətləndirilməsi (məsələn, hərbçi - intizamlı, qəddar, məhdud dərrakəyə malik -insan, professor stereotipi - ağıllı, dalğın və s.).

Ekspressiv-estetik stereotip: insan şəxsiyyətinin xarici görünüşünündən asılı olaraq qiymətləndirilməsidir (məsələn, “gözəllik effekti": qiymətləndirilən insanın xarici görünüşü nə qədər cəlbedici olarsa, o qədər də onun şəxsiyyətinin keyfiyyətlərində pozitiv cəhətlər ortaya qoyulur). Verbal-davranış stereotipi - bu, şəxsiyyətin xarici xüsusiyyətilərinin qiymətləndirilməsindən asılı olaraq gedir (nitqin xüsusiyyət- iləri, mimikası, pantomimika və s.).

Müəllim tərəfindən tələbə şəxsiyyətinin dərk edilməsi prosesində "stereotipləşdiril- mə" bütün istiqamətlərdə işləyir: sosial, emosional-estetik, antropoloji və s. stereotiplər lazım olan qədər fəaliyyətdə olur. Müəllimin öz pedaqoji təcrübəsinin təsiri altında spesifik sosial-stereotiplər yaranır: məsələn, "əlaçı", "iki alan və s. Yaxud, daim "əlaçı", yaxud "iki alan" xarakteristikasını özündə birləşdirən tələbə ilə rastlaşan müəllim daha çox və az ehtimal olan şəkildə onlarda müəyyən keyfiyyətlərin olduğunu müəyyənləşdirir. Müəllimlərdə adətən yaxşı oxuyan tələbə şəxsiyyətinin yaxşı stereotipi formalaşmışdır: yaxşı oxuyursa - deməli o, bacarıqlıdır, vicdanlıdır, intizamlıdır; yaxşı oxumursa deməli, istedadsızdır, tənbəldir, -özünü ələ ala bilməyəndir və s. Müəllimlərdə belə bir stereotip də -formalaşmışdır ki, qeyri-münbit, asosial davranışa meylli uşaqlar daha çox inadcıl, tərs, şuluq, dərslərdə sakit otura bilməyən olurlar.. Daim müəllimin göstəriş və iradlarına tabe olan tələbələr isə müəllim tərəfindəndan yaxşı tələbə kimi

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 249-256*

qiymətləndirilirlər. Emosional-estetik stereotipin özü də pedaqoji ünsiyyət prosesində müəyyən rol oynaya bilər. Məsələn, tanış olmayan tələbənin zahiri görünüşü cəlbedicidirsə, müəllim ona daha yaxşı münasibətdə olur. Şəxsiyyətlərarası dərketmədə əgər müəllim onlara ciddi şəkildə əməl edirsə və onların təsiri mütləq xarakter daşıyırsa, onda stereotiplər neqativ rol oynayır. Stereotiplərdən istifadə qismən o halda qəbul edilə bilər ki, əgər müəllim onlara söykənərək, tələbə şəxsiyyətinin ehtimal olunmuş qiymətini versin ("Ola bilər ki, o, mənə çox əziyyət versin") və əgər müəllim "özünü yaxşı tanıyır və özünə subyektiv dəyər stereotiplərinin mövcudluğu ilə bağlı hesabat verirsə, stereotiplərə söykənmə yalnız informasiya çatışmazlığı şəraitində gedir və sonra o öz yerini şəxsiyyətin məqsəd yönlü peşəkar cəhətdən öyrənilməsinə verir. Müəllim tərəfindən tələbə şəxsiyyətinin dərk olunmasında xüsusi rol empatiyaya məxsusdur. Başqasının halına acıma bacarığı nəinki digərinin qavranılmasının adekvatlığını yüksəldir, həm də tələbələrlə qarşılıqlı, səmərəli, müsbət münasibətlərin yaranmasına gətirib çıxarır. Çətin yeniyetmələrlə işdə empatiyanın özünü biruzə verməsi böyük əhəmiyyətə malikdir. Başqasının halına acıma nəinki onu yaxşı dərk etməyə, eləcə də tələbələrlə müsbət və səmərəli münasibətlərin qurulmasına şərait yaradır. Məsələn, tədqiqatçıların göstərdiyinə görə həddi-buluğa çatmayanların işləri üzrə müfəttişliyin qeydiyyatında olan yeniyetmələr müsbət emosional ünsiyyətdən məhrum olmuş və öz kollektivlərində psixoloji izolyasiya vəziyyətində yaşamışlar. Eksperimentlər sübut edir ki, zorakılığa meylin inkişafı və onun şəxsiyyətin həyat tərzinə çevrilməsi, adətən, şəxsiyyətin özündə və onu əhatə edən insanlarda empatiyanın çatışmazlığı ilə birbaşa əlaqəlidir. Yeniyetmələrin əksəriyyəti bu və ya digər dərəcədə emosional izolyasiyaya məruz qalırlar, məsələn, sevgi, məhəbbət çatışmazlığı, valideyn qayğısı çatışmazlığı və s. Məktəbdə isə onlar evdəkindən də çox müəllimlər tərəfindən təzyiqə məruz qalırlar. Bəzi hallarda empatiyanın özünü göstərməməsi ilə pedaqoji peşəkarlığın aşağı səviyyədə olması yeniyetmə şəxsiyyətinin neqativ inkişafı prosesini dərinləşdirir. Bu, tələbənin neqativ psixi vəziyyətidir ki, müəllim tərəfindən taktın pozulması ilə ortaya çıxır və şagir- din ətrafda olan insanlarla mənfi davranışına səbəb olur. Empatiya, kənarlaşma və identifikasiya mexanizmi müəllimin tələbə şəxsiyyətini dərk etməsi üçün son dərəcə mühümdür. Məhz tələbənin nöqteyi-nəzərini dərk edib qəbul etmək, özünü tələbənin yerinə qoymaq və onun mövqeyindən bu və ya digər məsələ haqqında mühakimə yürütmək - müəllimin peşəkar davranışı, tələbə şəxsiyyətinin dərkinin dərinliyi və bütövlüyü ilə əlaqədardır.

Bütün bunlar ilkin pedaqoji bacarıqlarla yanaşı xüsusi refleksiv- perseptiv bacarıqların olmasını da mütləq hesab edir. Onlar müəllimin xüsusi spesifik hissi, öz şəxsiyyətinə və tələbə şəxsiyyətinə olan münasibəti ilə bağlıdır. Bu bacarıqlar müəllimin özünü və digər insanın şəxsiyyətini dərk etmə səmərəliliyi ilə bağlıdır. Müəllimin refleksiv-perseptiv bacarığı orqanik bir kompleks yaradır: öz fərdi-psixoloji xüsusiyyətlərini dərk etmək, öz psixi vəziyyətini qiymətləndirmək və eyni zamanda tələbə şəxsiyyətini hər tərəfli qavramaq və düzgün dərketmək. Digər

bacarıqlar kimi onlar da müvafiq biliklər sisteminə əsaslanır (şəxsiyyətlərarası dərketmə və refleksiyanın mexanizm və qanunauyğunluqları, uşaqların, yeniyetmələrin, gənclərin yaş psixologiyası), müəyyən vərdişlərlə bağlıdır. Vərdişlərin strukturuna üç tip aiddir: sosial-perseptiv, refleksiv və intellektual. Sonuncular özünüdərk və tələbə şəxsiyyətinin dərk edilməsi üçün ayrı-ayrı pedaqoji məsələlərin həll olma bacarığının avtomatlaşdırılmasını nəzərdə tutur. Müasir tədqiqatlar göstərir ki, subyektin "Mən" konsepsiyasının idrak mürəkkəbliyi və diferensiallaşması onda digər insanların şəxsi xüsusiyyətlərinin əks olunması (yəni özünü göstərməsi) ilə birbaşa əlaqədədir. Müəllim özünün şəxsi xüsusiyyətlərini, güclü və zəif cəhətlərini, müxtəlif pedaqoji situasiyalara necə reaksiya verəcəyini bilmədikdə tələbə şəxsiyyətini dərk edə bilməz. Tələbənin stereotip əsasında qavranılması fəaliyyət zamanı müxtəlif çətinliklərlə rastlaşdıqda daha da artır. Məsələn, müəllim öz pedaqoji ünsiyyət və fəaliyyətində nə qədər çox çətinliklərlə rastlaşarsa, bir o qədər də işlədiyi tələbələr ona məsuliyyətsiz, maraqsız görünə bilər. Burada özünəməxsus psixoloji müdafiə yaranır və müəllim pedaqoji fəaliyyətində ortaya çıxan subyektiv çətinlikləri xarici, guya "obyektiv" səbəblərlə əlaqələndirir: "çətin kontingent, məsuliyyətsiz tələbələr, tənbəllər və s.". Tədqiqatlara əsasən tələbələri peşəkar səviyyəsində dərk etmək üçün müəllim, ilk növbədə öz "Mən"ini dərk etməlidir. Tələbələrin dərk olunması iki istiqamət üzrə nəzərdə tutulur: onların şəxsiyyət kimi və idrak-təlim fəaliyyətinin subyekti kimi dərk edilməsi. Tələbələrin təlim fəaliyyətinin subyekti kimi xüsusiyyətlərini təhlil edərkən, onların nəzəri və praktik fəaliyyətlərinin nədən ibarət olduğunu müəyyən etmək lazımdır. Bəzi tədqiqatlarda tələbə şəxsiyyətinin səmərəli dərkinin müəllimin fərdi psixoloji xüsusiyyətləri ilə, məsələn, onun introversiya, ekstroversiya, emosional stabillik kimi cəhətlərinin əhəmiyyəti qeyd olunur. Tədqiqatlar göstərir ki, ümumiyyətlə, introvert tipli müəllimlər ekstravertlərlə müqayisədə daha tam və adekvat şəkildə tələbə şəxsiyyətini əks etdirirlər. Özlərinin peşəkar təkmilləşmələrini özünəinamın inkişafı ilə bağlamayan müəllimlər (əksinə, onlar öz peşəkarlıq ideallarına yaxınlaşmaqla özünə daha az inamlı olurlar) tələbə şəxsiyyətinə daha çox pozitiv qiymət verirlər və əksinə, müəllim nə qədər öz peşəkarlığını, təkmilləşməsini özünəinamın qaldırması ilə bağlayarsa, o qədər də tələbə şəxsiyyətinin neqativ qiymətləndirilməsinə yaxınlaşar.

**AHMADOVA AYBANIZ**

## SUMMARY

**Thus article is about the following competencies that a teacher must have to properly organize teacher-student communication.**

1.Interest in people and working with students.
2.Emotional emphathy and understanding of people.
3.Agility.
4.Understanding feedback in communication.
5.Self-management, one’s own mental state.

6.Spontaneous.
7.Possible pedagogical situations.
8.Verbal.
9.To have pedagogical feelings.
10. Pedogogical improvisation.

**Необходимые профессиональные компетенции педагогу в процессе общения.**

**РЕЗУМЕ**

В данной статье речь идёт о правильной организации общения учителя и ученика,учитель должен обладать следующими компетенциями:
1) интерес к людям и работе с ними.
2) эмоциональное сопереживание и понимание людей.
3) обман
4) не чувствую обратной связи в общении.
5) управление собой, своим психическим состоянием

Ədəbiyyat siyahısı:

1.Lyn Ashmore and Denise Robinson. Learning, teaching and development, SAGE, London, 2015.
2.Motamedi V., Sumrall W.J. in Mastery learning and contem- partly boop
3. Mueller D. J. Mastery learning: Partly boon, doggle. Teachers College Record, 1976.sid
4.Ross L.L., McBean D. A. 197parison of contingenal cies in classes using Bean D. A comparison of pacinction. Journal of Applied Behavior Analysis, 1995.
5.Slavin R. E. An Introduction to Cooperative Learning, New York, NY: Longman, 1983:14 am
6. Slavin R.E., Karweit N.L. Mastery learning and student teams: A factorial experiment in urban general. Mathematics classes. American Educational Research Journal, 1984.
7.Wentling T.L. Mastery versus non-mastery instruction with varying test item feedback treatments. Journal of Educational Psy- chology, 1973.
8.Woods P. R., Barker, M. C., Daly A. Teaching intercultural skills in the multicultural classroom. Paper presented at the 4th An nual International Conference on Business, Honolulu, 2004

**Rəyçi: fil.f.d.,dos.M.N.Əsədova**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Əcnəbi dillər kafedrası**